**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

**№ 88 (1216) 13 may - 14 may 2016-cı il**

# Qarabağın bir parçası - Ağcabədi

*(Əvvəli ötən sayımızda)*

> **"İqtisadi müstəqillik bizim üçün böyük imkanlar açır. Biz iqtisadi müstəqilliyimizi düşünülmüş siyasətlə, aparılan islahatlarla, investisiya siyasətimizlə və regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası ilə təmin etmişik. Əminəm ki, növbəti illərdə bütün şəhər və rayonlarımızda işlər daha da sürətlə gedəcək. Çünki artıq çox möhkəm baza var. İnfrastruktur layihələrinin böyük əksəriyyəti icra edilir. Növbəti illərdə biz sənayenin, kənd təsərrüfatının inkişafı ilə daha çox məşğul olacağıq".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Hərdən sovet dönəmini qabartmağa çalışan insanları başa düşmürəm. Çünki bütün quruluşların mənfi-müsbət cəhədləri var. Amma bir gerçəklik də var ki, sovet dönəmində biz daha çox filan tapşırıq xatirinə yaşamağı, iş görməyi özümüzə həyat amalı etmişdik. Bu mənada ölkənin digər regionları kimi, Ağcabədidə də əmək adamları və bütövlükdə rayonun özü plan və öhdəlikləri yerinə yetirməyi ən birinci vəzifə hesab edib və ən birinci də mövqeyə çıxarmışdılar. Necə deyərlər, gecə-gündüzü iş başınla, tarlada keçən insan yaşamaq, istirahət etmək amilini arxa plana keçirmişdi. Hamı bir nəfər üçün prinsipi insan amilini kölgədə qoymuşdu. Bax bu mənada bugünkü Ağcabədinin mənzərəsi, bugünkü Ağcabədidəki həyat səviyyəsi adama qürur verir. Baxıb görürsən ki, bu gün ağcabədililər işləməyi bacardıqları kimi, qurub-yaratmağı da, istirahət etməyi də bacarırlar. Yəni insan ömrünün işə aid hissəsini həmin sahəyə yönəldir, qalan hissəsini də özünə, ailəsinə, mənəvi zənginləşməsinə sərf edir. Bunun üçün də Azərbaycan dövləti, bu dövlətin prezidenti bütün şəraiti yaradıb, müfaviq qərarlar da qəbul olunub. Həm icra strukturları, həm də qanunverici orqanlar hər şeyin insan üçün olduğunu önə çəkibdi. Məhz "Regionların İnkişafına Dair Dövlət Proqramı" da buna söykənir. Heç də təsadüfi deyil ki, ölkə prezidenti cənab İlham Əliyevin bütün regionlarımızla yanaşı, Ağcabədiyə, cəbhə bölgəsinə xüsusi diqqət yetirir, hətta özünün ad gününü də Ağcabədi ərazisində qarabağlılarla, qaçqın soydaşlarımızla birlikdə qeyd edir və dəfələrlə səfər etdiyi bu bölgənin inkişafı üçün əlavə tədbirlərin həyata keçirilməsi və görülən işlərin tempinin artırılması üçün müvafiq tapşırıqlarla yanaşı, Prezident Fondundan kifayət qədər vəsait ayırır.



Sevindirici haldır ki, ölkə prezidentinin diqqəti rayon rəhbərliyi və bütövlükdə icra strukturları tərəfindən çox məsuliyyətlə qarşılanır və qaldırılan məsələlər demək olar ki, vaxtlı-vaxtında öz həllini tapır. Hələ 5 il bundan öncə prezidentin sərəncamı ilə Ağcabədidə olimpia idman kompleksinin təməli qoyulmuş və bu kompleksin tikintisi artıq böyük sürətlə davam etdirilir, həmçinin rayonda istehsal olunan məhsulların bütün ilboyu istifadəsini təmin etmək və bunun həm rayon sakinlərinin, həm də respublika əhalisinin süfrəsinə çatdırılmasını təmin etmək məqsədilə Sahibkarlığa Kömək Milli Fondunun maliyyə dəstəyi ilə Rəcbərlər kəndində 5000 tonluq soyuducu anbarın tikintisi bütün mənalarda rayon üçün böyük əhəmiyyət kəsb edir. Yəni bu həm iş yeri deməkdi, həm də məhsul itkisinin qarşısının alınması, eləcə də rayonun Səməd Vurğun küçəsində "Cavidoğlu" MMC tərəfindən yeni, müasir tipli çörək zavodunun, həmçinin Fövqəladə Hallar Nazirliyinin Ağcabədi Yanğından Mühafizə bölməsi üçün inzibati binanın tikintisi özü də rayonun görünüşünə və paralel olaraq normal iş şəraitinin təmin olunmasına, süfrələrə yüksək keyfiyyətli çörəyin çatdırılmasına ayrılan diqqət, göstərilən qayğıdır.

Bütün bunlar təbii ki, planlı şəkildə həyata keçirilir və görülən işlərin kökündə konkret məqsəd dayanır. Əgər Ağcabədidə müasir tipli çörək zavodu tikilirsə, deməli, bu zavodun işləməsi üçün də xammal ehtiyatı olmalıdır. Bax elə ağcabədililər də torpaqdan səmərəli istifadə etməyi bacardıqları üçün bu məsələdə də narahatlıq hissi keçirmirlər. Çünki hər gələn il üçün bol taxıl ehtiyatı yaratmaq məqsədilə pilot təsərrüfatlar fəaliyyətə başlamışdır.




Təbii ki, bu ilin bol məhsulunun bünövrəsi ötən il qoyulmuşdu. Bu prinsipə çox diqqətlə əməl edən ağcabədililər artıq ötən ildəkindən çox sahədə buğda, arpa, dənlik qarğıdalı əkini aparmışdılar. Əldə etdiyimiz rəqəmlərə istinad etsək onda deməliyik ki, rayonda 2015-ci ilin yekununda müxtəlif sahələr üzrə uğurlu nəticələr olunmuşdur. Bu rəqəmlər sadəcə statistika deyil, bu həm də istehsalın göstəricisidir və paralel olaraq da ağcabədililərin əməyinin ifadəsidir.

Göründüyü kimi, kənd təsərrüfatı rayonu olan Ağcabədidə bu sahənin bütün istiqamətləri inkişaf etdirilir. Yeni pay torpağının sahibi olan ağcabədili, eləcə də burada fəaliyyət göstərən sahibkar, fermer və digər qurumların rəhbərləri onlar üçün maraqlı olan məhsuldarlığa həvəs yaradan sahələrə xüsusi diqqət yetirirlər. Nəticədə Ağcabədidə təkcə buğda, qarğıdalı, arpa, çuğundur deyil, həmçinin pambıq da, bostan-tərəvəz bitkiləri də heyvandarlığın inkişafı üçün gərəkli olan otlaqların da becərilməsi, suvarılması uğurla aparılır. Elə bunun nəticəsidir ki, bu ilin birinci rübündə Ağcabədidə kifayət qədər ət istehsal olunmuşdur. Heyvandarlığın uğurlu göstəricilərindən biri də bu rayonda süd və süd məhsulları istehsalının həcminin ilbəil artmasıdır.

Respublikamızda, eləcə də onun hüdudlarından kənarda artıq tanınan "Atena" MMC tərəfindən Ağcabədidə çox diqqəti çəkən və faydalılığı ilə hər kəsi sevindirən bir sahəyə imza atılıb. Bu da təbii ki, bu müəssisənin artıq süfrələrimizi bəzəyən məhsullarıdı. Çox qürurverici haldır ki, Ağcabədidə heyvandarlığın inkişafına həm ölkə rəhbərliyi, həm də rayon icra hakimiyyəti tərəfindən yaşıl işıq yandırılır. Elə bu qayğının nəticəsidir ki, rayonun Ağabəyli kəndi ərazisində "BMS Aqro" MMC tərəfindən böyük təsərrüfat yaradılıb. Bu təsərrüfatda Hollandiya və Fransadan gətirilmiş 4000 başdan artıq keçi bəslənilir.

**(Ardı var)**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ